**Vilyam Urban**

# TEVTON ORDENİ



Tərcüməçi:
Abdulhəlim Mikrağvi

qanun nəşriyyatı

**William Urban**

# THE TEUTONIC KNIGHTS



Bu kitab Vilyam Urbanın qırxillik tədqiqatları və yazıçı əməyinin yekunudur. “Tevton ordeni” əsəri ingilis dilində ilk araşdırma və XX əsrdə dünyada bu mövzuda yaradılmış ilk irihəcmli tədqiqatçı-yazıçı əməyidir. XII əsrdə Akrada yaradılan bu təriqət (lat. teutonicus – almanlara məxsus) dini-cəngavər ordenidir və Səlib yürüşləri dövründə əhəmiyyətli rol oynayıb. Dini fanatizm və amansızlıq, alicənablıq və asan qazanc əldə etmək ehtirası – bütün bu hisslər xaç yürüşlərinin əsrlər boyunca davam edən dramatizm ilə dolu tarixində, xristian dünyasının sərhədlərinin genişləndirilməsindən ötrü göndərilmiş hərbi ekspedisiyalarda öz rolunu oynayıb və təzəcə formalaşmağa başlayan Avropa mədəniyyətində dərin iz buraxıb.

Müəllifin kontinentin tarixi fonundakı unikal tədqiqatlarında, demək olar ki, onun yaradılmasından süqutuna kimi – ordenin üç yüz illik tarixi araşdıraraq təqdim olunub. Müqəddəs torpaqlarda müharibə, Livoniyadakı səlib yürüşləri, Buz döyüşü, Polşa ilə toqquşmalar, Litvanın xristianlığa qəbul edilmə mərasimləri, Tannenberq yaxınlığındakı döyüşlər və Baltikyanıda Ordenin sonu – Orden tarixinin mərhələləri, onun qələbə və məğlubiyyətlərinin salnaməsi müfəssəl şəkildə qələmə alınıb.

Bu kitab hərb tarixinin ən əhəmiyyətli dövrünün dərk edilməsinə, orta əsrlər siyasətinin mürəkkəbliyinin anlaşılmasına, insan davranışının sərhədlərinin və müasir alimlərin keçmişi öyrənərək, gələcəyin yollarını tapmasına yardımçı olacaq. Görünür, tarixi öyrənən zaman insanlar – millətçilik kabusları və siyasət uydurmalarından azad olurlar. Ona görə də, bu kitab sizin zamanın dərinliklərinə – geriyə, Orta əsrlərə, həm kişi, həm də qadınların nə bizdən yaxşı, nə də bizdən pis olmadığı, amma bizlərdən fərqli olduğu dövrlərə səyahətinizdə bələdçiniz olacaq.

**William Urban** **THE TEUTONIC KNIGHTS**
**Vilyam Urban** **TEVTON ORDENİ**
Bakı, Qanun Nəşriyyatı, 2023, 504 səh.

Janr: non-fiction/bioqrafiya
Ölçü: 130x200 mm
Cild: yumşaq
Çapa imzalandı: 24.04.2023

Naşir: Şahbaz Xuduoğlu
Tərcüməçi: Abdulhəlim Mikrağvi
Redaktor: Kəmalə Səlim Müslümqızı
Korrektorlar: Üzeyir Hüseynov, Nihat Pir
Texniki redaktor: Aygül Yelmarlı
Mətn dizaynı: Pərvanə Şahin
Qapaq dizaynı: Rafael Qasım

Qanun Nəşriyyatı
İstanbul Copyright Awards-ın qalibi
Bakı, AZ 1102, Tbilisi pros., 76
Tel: (+994 12) 431-16-62; 431-38-18
Mobil: (+994 55) 212-42-37
e-mail: info@qanun.az
www.qanun.az
www.fb.com/Qanunpublishing
www.instagram.com/Qanunpublishing

ISBN 978-9952-38-624-0

© Qanun Nəşriyyatı, 2023
Originally published in Great Britain by Greenhill Books
Publishing under the title The Teutonic Knights © William Urban 2003

Bu kitabın Azərbaycan dilinə tərcümə və yayım
hüquqları Qanunnəşriyyatına məxsusdur. Kitabın təkrar və
hissə-hissə nəşri «Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında»
Azərbaycan Respublikasının Qanununa ziddir.

Tevton ordeni...

Rusiyada o, hər şeydən əvvəl alman rıtsar-köpəkləri, almanların şərqə ekspansiyası, Buz döyüşü və özlərini ordenin davamçıları elan edən nasistlərlə assosiasiya olunur.

Vilyam Urbanın kontinentin tarixi fonundakı unikal tədqiqatlarında, demək olar ki, onun yaradılmasından süqutuna kimi, – ordenin üç yüz illik tarixi araşdırılıb təqdim olunmuşdur.

Müqəddəs torpaqlarda müharibə – Livoniyadakı səlib yürüşləri, ərazilərlə əlaqədar Polşa ilə toqquşmalar – Litvanın xristianlığa qəbul edilmə mərasimləri, Tannenberg yaxınlığındakı döyüşlər – və Baltikyanıda ordenin sonu.

Orden tarixinin mərhələləri, onun qələbə və məğlubiyyətlərinin salnaməsi belədir...

## ROMA TAXT-TACININ LAYİHƏSİ

IX əsr Avropa qitəsinin bir çox dövlətləri üçün dönüş dövrü olmuşdur. Roma İmperiyasının süqutundan sonra ötüb keçmiş bir neçə hələ də qaranlıq qalan mədəni fəlakətlər əsrləri yeni ümumavropa layihələşdirilməsinin yaranması ilə sona çatmışdır. Avropada təzə şəhərlərin tikintisində təcəssüm olunan belə layihə xristian dini olmuşdur. Roma taxt-tacı Qərbi Avropanı xristianlaşdırmış, həm antik, həm də müasir dövrlər üçün biliklər toplayan bütöv monastırlar sistemi tikib yaratmışdır. Bununla da, Avropada vahid xristian eyniyyəti formalaşdırıldı və yeni Avropa şəhər həyatı tərzi yarandı.

XI əsrin astanasında xaçpərəstlik Oykumenası Qərbi Avropanın sərhədlərinə gəlib çatdı və onun bundan sonrakı mümkün inkişaf yolları məsələsi, yəni Avropanın özünün terminləri ilə ifadə etsək – ekspansiya məsələsi yarandı. Və bu ekspansiya da dərhal və bir neçə istiqamətə: Pireney yarımadası, Yaxın Şərq və Baltikyanı ərazilərə başlandı.

Dini fanatizm və amansızlıq, alicənablıq və asan qazanc əldə etmək ehtirası – bütün bu hisslər xaç yürüşlərinin əsr-

lər boyunca davam edən dramatizm ilə dolu tarixində, xristian dünyasının sərhədlərinin genişləndirilməsindən ötrü göndərilmiş hərbi ekspedisiyalarda öz rolunu oynamış və təzəcə formalaşmağa başlayan Avropa mədəniyyətində dərin iz buraxmışdır. Əvvəllər Avropada görünməmiş permanentli müharibə feodalların vaxtaşırı topladığı orduların əvəzinə, indi burada daimi silahlı qüvvələrin olmasını tələb edirdi. Bunun həlli də, bu dövrün simvollarından birinə çevrilmiş dini-rıtsar ordenlərinin yaranması olmuşdur. Yüz il ərzində qitədə ondan çox belə orden yaranmış, tampleyerlər, ioannitlər (ya da gospitalyorlar), benediktinstlər, yezuitlər, fransiskantçılar, Tevton və Aviss ordenləri, Qılıncdarlar ordeni, Alkantarlar, Kalatravlar, Santyaqo və digər çoxlu orden onların içində ən məşhurları olmuşdur. Ancaq Romaya tabe olub və geniş ərazilərə yiyələnmiş ordenlər rıtsar-monarxlardan təşkil olunmuş dəhşətli ordulara malik olan öz xüsusi dövlətlərini yaratmış və məhz bu ordular özlərinin daha qüdrətli dövrlərində həm Müqəddəs torpaqlarda, həm də Baltikyanı ərazilərdə əsas rol oynamışdır.

Rusiyada Tevton ordeni, hər şeydən əvvəl, alman rıtsarları, almanların şərqə ekspansiyası, Buz döyüşü və özlərini ordenin varisləri elan etmiş nasistlərlə assosiasiya olunur. Artıq ikinci növbədə isə – və daha çox Henrik Senkeviçin "Əhl-səliblər" romanı sayəsində – Prussiyanın istilası və almaniyalaşdırılması, həm də Şimali Avropanın ən qüvvətli hərbi təşkilatını Grünvald döyüşündə məğlub edən Polşa və Böyük Litva knyazlığına qarşı müharibələr yada düşür. Bununla yanaşı, ölkələrin və xalqların taleyini müəyyənləşdirən bir çox hadisələr, məhz Prussiya və Litvada baş vermişdir.

Biz növbəti nəşrlərdə digər xristian ordenlərin də qəhrəmanlıq və qələbələrinə həsr olunmuş kitabları oxucuların ixtiyarına təqdim etməyi nəzərdə tuturuq. Bu, yezuitlərin Paraqvay eksperimentləri, ioannitlərin La-Valettanın – kanalizasiya ilə təmin olunmuş birinci Avropa şəhərinin tikilməsi tarixi, həm də tampliyerlərin iqtisadi fəaliyyətlərilə bağlıdır...

Bir çox ordenlərin fəaliyyəti xristian Oykumenasının sərhədlərinin qorunub saxlanması və genişləndirilməsilə yanaşı, peşəkarlıq əlamətləri üzrə də bölündüyü təəssüratı yaradırdı. Bu da təbii olaraq, Roma Taxt-Tacının mümkün irimiqyaslı layihəsinə işarə edirdi. Vaxtilə S. Peresleginin qeyd etdiyi kimi, belə tarixi-mədəni təqsim "bizə fantastik "Özülqoyma hipotezini" formalaşdırmağa imkan verir": bu da Roma-katolik Kilsəsində dərk edilmiş və Roma İmperiyasının yaradılması üçün, fikrən təhlil edilərək dərindən düşünülmüş, xristian Oykumenasında həyatın təşkil edilməsi kimi Qlobal Layihəsinin var olduğunu təsdiq edir".

*Nikolay Yutanov*
*Aleksandr Polyaxov*

## MÜƏLLİFDƏN

Mənim Baltikyanının tarixi haqqında bundan əvvəlki nəşrlərim dörd növdədir: Cerri Smitlə birlikdə etdiyimiz ən əhəmiyyətli salnamələrin tərcümələri; digər müəlliflərin işlərində buraxılmış faktiki səhvləri düzəltməyə çalışdığım və Prussiya və Livoniyada cərəyan edən səlib yürüşü hadisələrini təzədən izah etməyə çalışdığım məqalələr; əhl-səliblər haqqında ayrı-ayrı ensiklopediyalar üçün və ayrı-ayrı mərhələlərdəki səlib yürüşlərinin beş dövrünün – XIII əsr Prussiya və Livoniyada, Tannenberg yaxınlığındakı döyüşlə və onun nəticələri ilə əlaqədar bu regiondakı sonrakı xaç yürüşləri və digər həlledici hadisələrin ətraflı təsviri ilə yazdığım məqalələrdir.

Bu kitab, demək olar ki, mənim qırx illik tədqiqatlarımın və yazıçı əməyimin yekunudur. Bu, Tevton ordeni hərbi tarixinin ingilis dilindəki ilk araşdırması və bu mövzuda axırıncı yüzillikdə bütün dünyada yaradılmış ilk irihəcmli tədqiqatçı-yazıçı əməyidir.

Hər bir müəllif onun işinə verdiyi töhfələrə görə, çoxlu adama təşəkkür edir, bu baxımdan mən də digərlərindən fərqlənmirəm. Əvvəlcə Arçi Levisin adını çəkmək istəyirəm. Bu vaxtlarda Birləşmiş Ştatlarda çox az adama məlum olan

bu materialla işləməyə məni o inandırmışdır – burada da əsas söhbət Baltikyanı ərazilərdəki xalqların arasında gedən katolisizm, rus pravoslaviyası və bütpərəstlik mübarizəsindən gedir. Amerikan-alman klubu və Fulbraytın komissiyası Hamburgda bir il yaşamaq üçün, mənə maliyyə yardımı ayırdı, buraya gələndən sonra mən bu materialla əlaqədar bəzi təzə məlumatları da ala bildim və bu kitabı yazmağa başladım. Bir neçə il keçəndən sonra Fulbrayt komissiyası mənə Margburgdakı Herderovski institutunda işləmək üçün qrant ayırdı; buralar tədqiqat aparmaq üçün çox gözəl yerlər idi; mən bura sonralar da gəlirdim. Hər şey öz axarı ilə gedirdi, üzərində çox illər işlədiyim bu əsərim, nəhayət, mənim ən axırıncı kitablarımı çap edənlərin – Con Raskauskas və Çikaqodakı Litva tədqiqat mərkəzinin stolu üstündə peyda oldu. Bu kitabımın yaradılması ilə əlaqədar keçdiyim bu uzun-uzadı yolun hər addımında çox maraqlı və xeyirxah adamlara rast gəldim, heç vaxt yadımdan çıxarmayacağım yerlərdə oldum və həyatım boyu unutmayacağım dostlar qazandım.

*V.Urban,*
*2003-cü il*

# MÜQƏDDİMƏ

Niyə Tevton rıtsarlarının hərbi tarixi haqqındakı kitab əvvəllər yox, məhz indi peyda olmuşdur? Bu, düşünülmüş cavab tələb edən yaxşı sualdır. Səbəb səlib yürüşlərinin ən yaxşı tarixçilərinin diqqətini təkcə Müqəddəs torpaqda cəmləşdirməsidir. Axırıncı onilliklərdə çoxlu peşəkar tarixçi-mediyevistlər onların hərbi işlərinə, demək olar ki, marağını tamamilə itirmiş, ingilisdilli dünyadakı həvəskar tarixçilər isə, Baltikyanı ölkələrin, Şərqi və Mərkəzi Avropa xalqlarının tarixlərini öyrənmək istəyən zaman qarşılaşdığı çoxlu başqa dilin öhdəsindən gəlmək imkanında deyildilər. Əlavə olaraq, soyuq müharibə də bu ölkələrdə tədqiqat aparılmasını çətinləşdirirdi: nadir hallarda hərbi tarix üzrə mütəxəssisin siyasi niyyətlərindən şübhələnmirdilər. Ola bilər, hətta daha da əsaslı digər səbəb ingilisdilli əhalinin vaxtilə Baltikyanı ölkələrdə vüsət almış xaç yürüşləri haqqında lazımı qədər məlumatının olmamasından irəli gəlir. Bundan əlavə, səbəblərdən biri kimi, Orta əsrlərdə Qüdsü geri almaqdan ötrü etdiyi cəhdlərə marağın da azaldığını göstərmək olardı. Oxucu kütlədən tələb yox, deməli, müəllif və naşirlərdən də təklif yox idi.

Necə olsa da, camaatın maraqları dəyişilmişdi. İndi səlib yürüşləri haqqındakı kitablar yenidən məşhurlaşmağa başlamışdı. Hətta Avropanın ətrafındakılarda da xaç yürüşlərinə

maraq yaranmışdı. Əhl-səlibin İspaniya, Prussiya, Orta Asiya və Balkanlardakı əməlləri Müqəddəs torpaqdakı əhl-səliblərin əməllərinə bərabər və ya, demək olar ki, bərabər idi. Rıtsar Çosera bunu başa düşürdü, bunu həm də müasir alimlər və geniş oxucu kütləsii də başa düşürdü.

Baltikyanı artıq – bir neçə il bundan əvvəl olduğu kimi – o qədər də bunlardan uzaqlaşdırılmış görünmürdü. Bu gün turistlər heç bir çətinlik çəkmədən, buralarda Tevton ordeni rıtsarlarının tikdiyi şəhər və qalalara baş çəkə bilərlər. Vaxtilə Prussiya və Livoniyanın olduğu yerlərdə indi qala-qəsrlərin romantik xarabalıqları yüksəlməkdədir. Tarixin bu dövrünün işlənib hazırlanmasında Polşa aparıcı yer tutur: Malbork (Mariyenburg), Grünvalddakı (Tanenberqdəki) döyüş yerləri kimi, artıq turizm mərkəzinə çevrilmişdir (yeri gəlmişkən, burada qarşı-qarşıya duran orduların yerləşdirilməsi indiyə kimi diskussiya predmeti olaraq qalmaqdadır), məsələn, Qdansk (Dantsiq) kimi orta əsr şəhərlərinin tarixi mərkəzləri bərpa edilmişdir. Latviyada Riqa, Estoniyada qədim divarlar və qüllələrlə əhatə olunmuş köhnə şəhər Tallin (Revel) var və, nəhayət, Litva ərazisində, adada gözəl Trakayskiy qalası qorunub saxlanılmışdır. Kimlər ki Eyzenşteynin dəqiq olmayan, amma bununla bərabər, çox güclü "Aleksandr Nevski" filminə baxıb, onlar 18 aprel 1242-ci ildə həmin döyüşün baş verdiyi Çud gölünün sahillərinə baş çəkə bilərlər.

Mərkəzi Avropada da baş çəkiləsi iki şəhər vardır. Onlardan biri Ştutgartdan şimal-qərbdə Almaniyadadır: bu, Prussiya torpaqları dünyəviləşdirildikdən sonra, Tevton ordeni qrossmeysterinin iqamətgahı olmuş Bad Mergenthaymdır. Digəri Avstriyadadır, bu həmin müqəddəs Stefanın kafedral baş kilsəsinin

yerləşdiyi məhəllədəki Vyanadır, indi burada ordenin müasir qərargah-mənzili də yerləşir. Həm qərargah-mənzil, həm də baş kilsə öz ixtiyarında maraqlı müzeylər də yaradıb. Almaniya, Avstriya, Çexiya respublikası və hətta İtaliyada əsası orden tərəfindən qoyulmuş bir çox monastır, kilsə, saray və qalalar qorunub saxlanılmaqdadır.

Bu yerlər yenidən öyrənmək və yaxud da yenidən mənalandırmaq üçün keçmişin lazım olan hadisələri ilə boldur – axı bir vaxtlar Mərkəzi Avropada Tevton rıtsarları güclü və hörmətli olmuşlar – lakin onların reputasiyası Orta əsrlərdə olduğu kimi, Yeni zamanlarda da təbliğatçı, millətçi, protestant və ateistlərdən olduqca böyük zərər çəkmişdir. İttihamçılar, əlbəttə, bəzən haqlı olurdular, lakin bu zaman ordenin düşmənləri haqqında deyəndə, onların həm qəlbən, həm də məqsəd və əməllərinə görə son dərəcə təmiz olduğunu deyirdilər. Və indi orden tarixinə yenidən baxılmasının və o dövrlərin hadisələrinə verilən əvvəlki qiymətlərin yenidən dəyərləndirilib təqdim edilməsinin vaxtı çatmışdır.

Bizim bildiyimiz Avropanın bir çox aspektlərini indi yenidən baxıb dəyərləndirirlər. Orta əsrlər xristanlığının sərhədləri müasir Avropa ittifaqının sərhədləri ilə tamamilə üst-üstə düşür və onun ətrafında gedən müharibələr müasir ittifaq dövlət başçıları üçün böyük problemlər yaradır. Çemberlen Çexoslovakiyanı ingilislərin onun haqqında az məlumatlı olduğu üçün və uzaq ölkə kimi Hitlerə vermişdi. Lakin bu gün Avropada – uzaq və anlaşılması daha çətin olan vilayətlərdə cərəyan edən konfliktlər haqqında qəzet oxucuları tam təfsilatı ilə danışa bilirlər. Çoxumuz 1989-cu ilə kimi Şərqi və Mərkəzi Avropada səyahət edərkən, çoxlu çətinliyə rast gəlmişik və bu gün onları tələbə